# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YEYİNTİ SƏNAYESİNİN MÜASİR VƏZİYYƏTİ

**Eminova Əsmət Mirpənah qızı**

Azərbaycan Elm və Təhsil Nazirliyi akad. Həsən Əliyev adına Coğrafiya İnstitutu

**m.e.eminova@gmail.com**

**Xülasə:** Məqalədə qida sənayesi və onun xammal bazası olan kənd təsərrüfatı sahələri ətraflı təhlil olunmuşdur. Həmçinin inzibati rayonlar üzrə qida sənayesi müəsissələrinin yerləşməsi və fəaliyyəti haqqında məlumat verilmişdir. Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində olduğunu nəzərə alsaq təsərrüfat sahələrinin inkişafına xüsusilə də yeyinti sənayesinə diqqət yetirmək və onun elmi tərəflərini araşdırmaq vacib sayılır. Bunun üçün ərazinin təbii-coğrafi şəraiti qiymətləndirilməli və kənd təsərrüfatı sahələri inkişaf etdirilməlidir. Kənd təsərrüfatının müxtəlif sahələrinin ərazi təşkili və yeyinti sənayesinin inkişaf etdirilməsi muxtar respublikada həm əhalinin qida təminatında, həm də məşğulluğun artırılmasında önəmli rol oynayır. Qeyd edlilən sahələrin müasir vəziyyətinin dəyərləndirilməsi və bu sahədə olan problemlərin elmi araşdırılması muxtar respublikada yeyinti sənayesinin inkişaf perspektivlərini aydınlaşdırmağa kömək edəcəkdir.

**Açar sözlər**: Naxçıvan Muxtar Respublikası, yeyinti sənayesi, kənd təsərrüfatı, əkinçilik, heyvandarlıq.

Qədim dövrdən müasir zamana qədər insanlar həyatda qalmaq üçün öz yaşayış yerlərini və qida ehtiyatını təmin etmək məcburiyyətində olmuşdur. Ehtiyac və təlabatı qarşılamaq hər zaman aralığında eyni dinamika üzrə inkişaf etməmişdir. Əhalinin sayının artması, onların tələblərinin dəyişməsi istehsal olunan məhsulların həm kəmiyyətində, həm də keyfiyyətində dəyişikliklərin meydana çıxmasına səbəb olmuşdur. Texniki tərəqqinin nailiyyətlərindən istifadə bu cür şərtlər daxilində qaçınılmazdır. Yeyinti sənayesinin inkişafına təkan verən bir amil kimi yeni texnologiyanın tətbiqi artan təlabatı ödəməyə şərait yaradır. Bu kimi şərtlər daxilində yeyinti sənayesinin öyrənilməsi praktiki əhəmiyyət daşıyır.

Yeyinti sənayesi müasir dünyanın əvəzedilməz bir sektorudur. Bütün dünyada olduğu kimi, Azərbaycan Respublikasında, o cümlədən də Naxçıvan Muxtar Respublikasında da bu sahədəki böyük inkişaflar insanların gündəlik qida tələbatlarının rahat və sürətli təminini mümkün edir. Bu sahədəki texnoloji inkişaflar yeyinti məhsullarının hazırlanması və saxlanılmasını artırmaq üçün yeni perspektivlər açır. Bu inkşaf məhsulların tərkibində olan vitamin və minerallaırn saxlanılmasını və dadının qorunması istiqamətində çox böyük önəm daşıyır. Yeyinti sənayenin doğru və effektiv formada işləməsi ölkə iqtisadiyyatının inkişafına dəstək olur və insanların qida tələbatlarını daha rahat şəkildə əldə etmələrini təmin edir. Həm də bu sənaye kənd təsərrüfatı və təbii mühit üçün vacibdir. Yeyinti sənayesi sayəsində tərəvəz və meyvələrin işlənməsi və hazırlanması mümkün olur. Beləliklə onların saxlanılma müddəti artır və gərəksiz israfı azaldır. Yararlı məhsulların tullantıya çevrilməsinin qarşısını alır. Bu da kənd təsərrüfatı məhsullarının effektiv istifadəsini təmin edir və mühitin qorunmasına yardımçı olur.

Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyinin, iqlim şəraitinin əlverişli olması, həmçinin əhalisinin əmək vərdişləri burada əkinçilik və heyvandarlığın daimi inkişafına şərait yaratmışdır. İqtisadi rayonun sənaye strukturunda kənd təsərrüfatı məhsullarının istehsalı əsasında yeyinti sənayesi əldə edilən məhsulun kəmiyyətinə və bu sahədə çalışan insanların sayını görə ilk pillədə yerləşir. Artan tələbatın qarşılanması muxtar respublikanın prioritet məsələlərindən biri olmuş, dövlət proqramlarında hər zaman diqqət mərkəzində saxlanılmışdır.

Yeyinti sənayesinin daxilində heyvandarlıq məsullarının istehsal edilməsi vacib sahə olaraq qalmaqdadır. Cədvəl 1-də

iqtisadi rayonda heyvandarlıq məhsullarının 2015-2022-ci illər üzrə dinamikasını  müşahidə edirik.

Cədvəl 1.

Naxçıvan Muxtar Respublikasında heyvandarlıq məhsullarının istehsalı

| Məhsullar | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| Ət (kəsilmiş şəkildə), ton | 13812 | 14378 | 15090 | 15517 | 15951 | 16505 | 17421 |
| Süd, litr | 80244 | 82857 | 83967 | 85638 | 87334 | 88565 | 89853 |
| Yumurta, min ədəd | 73486 | 86236 | 87281 | 89630 | 91765 | 106083 | 110534 |
| Mənbə: Azərbaycanın regionları-2023 Bakı, DSK, səh 57 | | | | | | | |

Statistikaya əsasən  2022-ci ildə ət istehsalı təqribən 17,4 min ton, süd istehsalı 89,8 min litr, yumurta istehsalı 110 mln ədəd olmuşdur. 2015-ci ilə nəzərən ət istehsalı 26,1%, süd istehsalı 11,9%, yumurta istehsalı 50,4% artmışdır. Qeyd olunan məhsullar içərisində ən yüksək artım yumurta istehsalında qeydə alınmışdır.

Cədvəl 2.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı bitkilərinin istehsalı

| Məhsullar, tonla | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| Dənlilər və dənli paxlalı bitkilər | 117352 | 112689 | 114936 | 118146 | 132769 | 126405 | 123016 |
| o cümlədən payızlıq və yazlıq buğda | 79140 | 66095 | 68714 | 77261 | 83824 | 67474 | 69945 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Kartof | 45043 | 48982 | 49574 | 50092 | 50668 | 54689 | 54998 |
| Tərəvəz | 82016 | 84722 | 85642 | 86745 | 76703 | 87728 | 88034 |
| Bostan məhsulları | 38003 | 38349 | 38714 | 38851 | 31798 | 35142 | 35336 |
| Meyvə və giləmeyvəlil ər | 51111 | 53069 | 55949 | 52022 | 52518 | 53114 | 53731 |
| Üzüm | 15354 | 15906 | 16223 | 16706 | 16885 | 17098 | 17280 |
| Mənbə: Azərbaycanın regionları-2023 Bakı, DSK, səh 57 | | | | | | | |

Naxçıvan MR-də statistikaya əsasən 2022-ci ildə 2015-ci ilə nəzərən dənlilər və dənli paxlalı bitkilərin istehsalı 4,8%, kartof istehsalıda 22,1%, tərəvəz istehsalında 7,3%, meyvə və giləmeyvə istehsalı 5%, üzüm istehsalı 12,5% artım, payızlıq və yazlıq buğda istehsalı 11,6%, bostan məhsullarının istehsalı 7% azalma müşahidə edilmişdir. Verilən illər ərzində ən yüksək artım kartof istehsalında, ən aşağı isə payızlıq və yazlıq buğda istehsalında qeydə alınmışdır (Cədvəl 2).

İqtisadi-coğrafi rayonda yeyinti sənayesinin müxtəlif sahələrinin inkişafı Cədvəl 3-də aydın təsvir olunmuşdur. Verilən məhsul növlərinin dəyişən dinamikası təhlil edilən zaman ən yüksək artımın şirinləşdirilməmiş suların istehsalında olduğu nəzərə çarpır. Şirinləşdirilməmiş suların istehsalı 2015-2021-ci illər aralığında hər il keçən ilə nisbətən artım göstərmişdir. 2021-ci ilə nəzərən 2015-ci ildə məhsul istehsalı təxminən 3,9 dəfə artım göstərərək 29147,8 min dkl olmuşdur. Digər sahələr ilə müqayisə olunduğu zaman bu sahənin artım dinamikası xüsusi ilə seçilir.

Meyvə şirələrinin istehsalında 2015-2022-ci illər arasında müxtəlif statistika qeydə alınmışdır. 2015-ci ildə 4,3 min dkl, 2019-cu ildə 19,8 min dkl meyvə şirəsi istehsal olunmuşdursa, 2020-ci ildə 12,4 min dkl olmuşdur. 2015-ci ilə nisbətən 2019-cu ildə 4,6 dəfə artım, 2019-cu ilə nisbətən 2020-ci ildə 1,6 dəfə azalma qeydə

alınmışdır. 2022-ci ildə isə əvvəlki ilə nəzərən 4,3 min dkl və ya 31,6% artım olmuşdur.

Cədvəl 3.

Naxçıvan Muxtar Respublikasında yeyinti sənayesi məhsulları istehsalının dinamikası

| Məhsul növləri | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
| Duz, ton | 4743 | 4841,0 | 5343,7 | 5567,1 | 4980,1 | 5414,2 | 5290,1 |
| Kolbasa məmulatları, ton | 1391 | 1495 | 1561,8 | 1610,2 | 1631,1 | 1655,6 | 1538,4 |
| Meyvə şirələri, min dkl | 4,3 | 28,4 | 16,0 | 19,8 | 12,4 | 13,6 | 17,9 |
| Makaron məmulatları, ton | 617,2 | 653,5 | 667,2 | 677,9 | 685,4 | 695 | 630 |
| Çay, ton | 19,8 | 7,3 | 13 | 13,70 | 12,2 | 11 | 25,6 |
| Qida duzu, ton | 2603 | 2644,7 | 3059,5 | 3123,5 | 2840 | 3391,4 | 3327,4 |
| Alkoqolsuz içkilər, min dkl | 204,7 | 93,9 | 7 | 6,1 | 23,2 | 294,9 | 279,4 |
| Araq, min dkl | 111,2 | 30,3 | 35,5 | 180,3 | 183,7 | 186,5 | 180,6 |
| Şirinləşdirilməmiş sular, min dkl | 7580 | 8104 | 11892,6 | 29045,6 | 29118,7 | 29147,8 | - |
| Pivə, min dkl | 44,7 | 40,3 | 44,7 | 60 | 82,2 | 98,3 | 111,2 |
| Üzüm şərabı, min dkl | 124,4 | 134,5 | 139,3 | 141,7 | 144,1 | 146,3 | 134 |

- məlumat verilməmişdir.
Mənbə: Azərbaycanın regionları-2023. Bakı, DSK, səh 58

Statistik məlumatlara əsasən kolbasa məmulatlarının istehsalı 2015-2022-ci illər arasında əsasən artan dinamika üzrə inkişaf etmişdir. 2015-ci ildə 1391 ton 2021-ci ildə isə 1655.6 ton kolbasa məmulatı istehsal olunmuşdur. Qeyd olunan illər arasında (7 il) 1,2 dəfə və ya 19,02% artım qeydə alınmışdır. 2022-ci ildə isə əvvəlki ilə nəzərən 117,2 ton və ya 7% azalma olmuşdur. Yeyinti sənaye tərkibində makaron məmulatlarının istehsalı 2015-ci ildə 617,2 ton təşkil etmişdir. 2021-ci ilə qədər müsbət dinamika ilə inkişaf edən istehsal sahəsi 7 il ərzində 1,12 dəfə və ya 12,6%

artaraq qeyd olunan ildə 695 ton məhsul istehsal olunmuşdur. 2022-ci ildə isə 630 ton məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki ilə nəzərən 9,3% və ya 65 ton azalma deməkdir.

Yeyinti məhsullarının istehsalında qida duzundan 2015-ci ildə 2603 ton, 2019-cu ildə 3123,5 ton istehsal olunmuşdur. Verilən illər ərzində artım 1,2 dəfə və ya 19,9% olmuşdur. 2020-ci ildə 2840 ton məhsul istehsal olunmuşdur ki, bu da keçən illə müqayisədə 1,09 dəfə vəya 9,07% azalma deməkdir. 8 il ərzində ən yüksək artım 2021-ci ildə qeydə alınmışdır. Əvvəlki il ilə müqayisədə 1,2 dəfə və ya 19,4% artım müşahidə olunmaqla 3391 ton qida duzu istehsal olunmuşdur. 2022-ci ildə əvvəlki ilə nəzərən 64 ton və ya 1,8% azalma olmuşdur. Qeyd olunan illər aralığında (2015-2022) duz istehsalında eyni dinamika qeydə alınmışdır. 2015-ci ilə nəzərən duz istehsalı 2019-cu ildə 1,2 dəfə və yaxud 17,4% artaraq 5567,1 ton olmuşdur. 2020-ci ildə 4980,1 ton duz istehsal olunmuşdur ki, bu da keçən ilə nisbətən 1,1 dəfə və ya 10,5% azalma deməkdir. 2022-ci ildə isə keçən ilə nəzərən 124,1 ton və ya 2,2% azalma qeydə alınaraq 5290,1 ton duz istehsal olunmuşdur. Sənaye sahələrində verilən illər üzrə bu dəyişikliklərin əsas səbəbi kimi pandemiya dövrü götürülür. Karantin dövrü məhsul istehsalının azalmasına səbəb olmuşdur.

Yeyinti sənayesinin inkişaf etdirilməsi ərzaq təhlükəsizliyini təmin etməklə bərabər ixrac yönümlü iqtisadiyyatın genişlənməsinə səbəb olur. Naxçıvan Muxtar Respublikasın iqtisadi-coğrafi rayonlar içərisində yeyinti sənayesi məhsullarını istehsal edən sənaye müəssisələrinin sayına görə xüsusi ilə seçilir. Naxçıvan şəhəri mərkəz funksiyasını daşıdığına görə əsas müəssisələr və işçi qüvvəsi burada toplanmışdır. 2003-cu ildən fəaliyyət göstərən "Sirab" mineral sular zavodunda 21 çeşiddə istehsal olunan məhsul daxili bazarla bərabər dünyanın bir çox ölkəsinə Qazaxıstan,

Rusiya, Litva, Ukrayna, Türkmənistan və s. ixrac olunur. 114 nəfərin işlədiyi müəssisədə məhsullar İSO standartlarına uyğun şəkildə istehsal olunur. Babək rayonu ərazisində yerləşən 2005-ci ildən fəaliyyət göstərən "Babək Şərab-2 Yeddilər" müəssisəsində müxtəlif ölçülü spirtli içkilər (bitki və meyvə ekstratlı) istehsal olunur. Müəssisədə 42 nəfər işçi çalışır və istifadə olunan qurğular İtaliyadan ixrac olunmuşdur. Şahbuz rayonunda yerləşən "Çınqıllı-Bulaq" MMC-də təbii bulaq suyu istehsal olunur ki, məhsula dövlət tərəfində keyfiyyət sertifikatı verilib. Müəssisədə 18 nəfər fəaliyyət göstərir.

"Naxçıvan duz istehsalı"MMC Kəngərli rayonunda yerləşir, 1927-ci ildən fəaliyyətini davam etdirir. 86 nəfərin işlədiyi müəssisədə yemək duzu, qaya duzu və texniki duz istehsal olunur. "Gəmiqaya Qida Məhsulları" MMC Naxçıvan şəhərində yerləşir, müəssisədə 32 nəfər çalışır. Almaniya, Türkiyə və İtaliyadan alınan qurğularla meyvə şirələri, quru meyvələr, bəhməz, tahin, şərab kimi məhsullar istehsal olunur. 35 nəfərin çalışdığı " Cahan Tea" MMC-də dərman bitkilərinin və çay qablaşdırılması, rafinə şəkər tozu istehsalı və qablaşdırılması aparılır. Naxçıvan şəhərində yerləşən müəssisədə istehsal olunan məhsullara dövlət tərəfində keyfiyyət sertifikatı təqdim olunub. İstifadə olunan avadanlıqlar isə yeksək keyfiyyətli olub, ABŞ, İtaliya, Türkiyə və Macarıstandan alınmışdır.

"Cahan Tabak" MMC Naxçıvan şəhərində yerləşir. Müəssisədə 55 nəfər fəaliyyət göstərir, tütün və tütün məhsulları istehsal olunur. Böyük Britaniya, Almaniya və ABŞ istehsalı olan avadanlıqlar müəssisədə quraşdırılmışdır. "Gəmiqaya Mineral Sular" MMC 2006-cı ildən fəalliyyət göstərərək Badamlı mineral süfrə sularını istehsal edir. Naxçıvan şəhərində yerləşən müəssisədə

38 nəfər işləyir. İstehsal olunan məhsullar sertifikatlaşdırılmış və bir çox ölkələrə-İran, Rusiya, Orta Asiya ölkələrinə ixrac olunur.

21 nəfərin işlədiyi “Farma Şah” MMC Şahbuz rayonunda yerləşir. 2009-cu ildən fəaliyyət göstərən müəssisədə 12 adla və 16 növdə işlənmiş və qablaşdırılımış dərman bitkiləri istehsal olunur. 2008-ci ildən fəaliyyət göstərən “F.Q.Oğulları” MMC Ordubad rayonunda yerləşir. 30 nəfərin fəaliyyət göstərdiyi müəssisədə tut, badımcan, albalı, gilas, qoz-fındıqdan müxtəlif konservlər və mürəbbələr hazırlanır. “Asnı” balıq yetişdirmə ferması Kəngərli rayonunda yerləşir. 20 nəfərin işlədiyi fermada qablaşdırılmış təzə balıq (1kq), pomidor sousunda konservləşdirilmiş balıq, zeytun yağında konservləşdirilmiş balıq istehsal olunur. “Prestij Naxçıvan Pivəsi” MMC 2006-cı ildən fəaliyyət göstərir. 30 nəfərin işlədiyi müəssisədə müxtəlif ölçülü pivələr istehsal olunur. Müəssisədəki avadanlıqlar Çexiya, Almaniya, İtaliyadan alınmışdır.

Naxçıvan Muxtar Respublikasının yeyinti sənayesi artan templə inkişaf edir. Burada yerləşən sənaye obyektləri müasir avadanlıqlarla təmin olunmuş, bu avadanlıqların əksər hissəsi Avropa ölkələrindən alınmışdır. İstehsal olunan yeyinti sənayesi məhsulları yerli tələbatı ödəməklə bərabər, bəzi məhsulları dünya bazarına da çıxarılır. Yeyinti sənayesi müstəqillik dövründə həyata keçirilən dövlət proqramları nəticəsində daha da sürətli inkişaf etmişdir. 2004-cü ildən 2023-cü ilə qədər 4 dövlət proqramı çərçivəsində Naxçıvanda su kanalları çəkilmiş, yeni bağ sahələri salınmış, investisiya ayrılmış, yeni avadanlıqların gətirilməsi üçün tədbirlər görülmüşdür. Bu kimi tədbirlərin nəticəsində iqtisadi-coğrafi rayonun yeyinti sənayesi inkişaf etmişdir. Yeyinti sənayesinin inkişafı başqa bir tərəfdən ona görə vacibdir ki, Naxçıvan anklav mövqedə yerləşir. Azərbaycanla birbaşa quru əlaqəsi yoxdur. Muxtar Respublikanın özünü qida ilə təmin edə

bilməsi prioritet məsələdir. Çünki digər dövlətlərlə yarana biləcək hər hansı bir problem oradakı Azərbaycan əhalisi üçün təhlükədir. Ona görə də Naxçıvanın bütün sahələrində olduğu kimi yeyinti sənayesinin davamlı inkişafı həyati əhəmiyyət daşıyır. Muxtar Respubllikanın geosiyasi mövqeyini nəzərə alsaq bu sahənin hər tərəfli inkişafına xüsusi diqqət yetirilməsi zəruri hesab olunur.

Naxçıvan Muxtar Respublikasında yeyinti sənayesi fermerlərdən və sahibkarlardan əldə edilən kənd təsərrüfatı məhsullarını emal edərək fərqli məhsullara çevirir. Bu istehsal sayəsində çeşidli qida məhsulları istehsal olunur. İstehlakçının ehtiyaclarına uyğun hala gətirilir. Bu sektor kənd təsərrüfatı məhsullarını emal edərək, paketləyərək və istehlakçıya çatdıraraq qida zəncirində önəmli bir həlqəni təşkil edir. Qida istehsalı paketləmə texnologiyası məhsulların son istifadə tarixini uzatmaq və daşınma zamanı zərər görməsinin qarşısını almaq üçün vacibdir.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın bütün sahələri üzrə xüsusi ilə seçilən bir iqtisadi coğrafi rayondur. Burada sənaye sahələrinin inkişaf etdirilməsi üçün Dövlət Proqramları daxilində müxtəlif tədbirlər görülür. Sənaye sahələri içərisində yeyinti sənayesinin inkişafı dünyanın hər ölkəsində olduğu kimi burada da prioritet bir məsələdir. Əhalinin qida məmulatları ilə təmin olunması onun davamlı inkişafının dayaq nöqtələrindən biridir. Qida sənayesinin inkişaf etdirilməsi muxtar respublikanın hərtərəfli inkişafını təmin edən amildir. Ərazinin su ehtiyatı, iqlimi, əhalinin yaşayış şəraiti yeyinti sənayesinin inkişafına təkan vermişdir. Qida istehsalı müəssisələri həmçinin regionlarda insanları iş imkanları ilə təmin edir. Beləliklə, muxtar respublikada işsizliklə mübarizə tədbirlərində önəmli bir yer tutur. Buradan aydındır ki, işsizlik ölkənin iqtisadiyyatına mənfi istiqamətdə təsir göstərir. Həmçinin, işsizlik regionda əhalinin rifahına, sosial-mədəni həyatına, psixoloji

vəziyyətinə, təhsilalma prosesinə, özünü inkişaf etdirmə imkanına birbaşa təsir göstərir. Bütün bunları nəzərə alaraq muxtar respublikada digər sahələrlə yanaşı yeyinti sənayesinin də inkişafı həm əhalinin ərzaqla təminatında asıllığı azaldar, həm də, əhalinin məşğulluq problemlərinin həllində mühüm rol oynayar.

## Ə d ə b i y y a t


1. Azərbaycan Respublikasının Coğrafiyası II cild, Bakı-2015, 328 s
2. Azərbaycanın Kənd Təsərrüfatı, Bakı -2023, 703 s
3. Azərbaycanın Regionları, Bakı-2022, 722 s
4. Naxçıvan Muxtar Respublikasının Coğrafiyası İqtisadi və Sosial Coğrafiya II cild, Naxçıvan-2018, 381 s
5. Сделано Азербайжане каталог компаний, Баку-2014, 162 с.


## THE MODERN STATE OF THE FOOD INDUSTRY OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC


**Summary:** In the article, the food industry and the agricultural areas, which are its raw material base, were analyzed in detail. Information on the location and activity of food industry enterprises by administrative regions was also provided. Considering that the Nakhchivan Autonomous Republic is in a state of blockade, it is important to pay attention to the development of economic sectors, especially the food industry, and to study its scientific aspects. For this, the natural and geographical conditions of the area should be evaluated and agricultural areas should be developed. Territorial organization of various fields of agriculture and development of food industry play an important role in the autonomous republic both in providing food for the population and in increasing employment. The assessment of the current state of the mentioned areas and the scientific investigation of the problems in this area will help to clarify the development prospects of the food industry in the autonomous republic.



**Keywords**: Nakhchivan, food industry, agriculture, farming, consumption